ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2019, 6 (2), ss 1151-1163

Academic Journal of History and Idea, 2019, 6 (2), pp 1151-1163

Araştırma Makalesi
Original Article

# Azərbaycanda Demokratik Parlament İnstitutuna Seçkilər (1995-2006-cı illər)

**Alı Məhəmməd oğlu Balayev***

**ORCID: 0000-0002-3148-3223**

**Xülasə**

Məqalədə Azərbaycanda parlamentlik institutunun demokratik seçkilər əsasında yaradılması, parlamentin səlahiyyətləri, vəzifələri, deputatların statusu və s. məsələlər araşdırılır. Müəllif parlament seçkilərində seçicilərin fəal iştirakından, demokratik ümumi, bərabər gizli səsvermə və referendum yolu ilə öz məqsədlərini reallaşdırdıqlarından bəhs edir. Azərbaycanda parlament beynəlxalq təcrübəyə və milli mentalitetə əsaslanan demokratik, qanunverici bir institutdur. Məqalənin yazılmasında məqsəd Azərbaycanın demokratik inkişafında növbəti addımın atılması, mütərəqqi qanunların qəbul edilməsi, azad seçki yolu ilə qanunvericilik hakimiyyəti orqanının seçilməsinin işıqlandırılmasından ibarətdir.

**Açar sözlər:** Azərbaycan, Konstitusiya, Qanunvericilik hakimiyyəti, Seçki komissiyası, Parlament

**Gönderme Tarihi: 25/03/2019** **Kabul Tarihi:22/06/2019**

* *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, E-Posta:ali.balayev.66@mail.ru*

© ATDD Tüm Hakları Saklıdır

CC BY

# Elections to the Democratic Parliamentary Institute in Azerbaijan (1995-2006)

**Alı Məhəmmədoğlu Balayev**

**ORCID: 0000-0002-3148-3223**

**Abstarct**

The article discusses the creation of a parliamentary institution in Azerbaijan on the basis of democratic elections, examines questions of the powers of parliament, the status of deputies, etc. The author mentions the active participation of voters in the parliamentary elections, as well as the realization of their goals through universal, equal democratic, secret voting and a referendum. The Parliament of Azerbaijan is a democratic legislative institution based on international experience and a national mentality.The purpose of writing this article is to highlight the democratic development of Azerbaijan, the adoption of progressive laws and by holding free legislative elections.

**Keywords:** Azerbaijan, Constitution, Legislative power, Election Commission, Parliament

**Received Date: 25/03/2019** **Accepted Date: 22/06/2019**

# Выборы в демократический парламентский институт в Азербайджане (1995–2006 гг.)

**РЕЗЮМЕ**

В статье рассматривается создание в Азербайджане парламентского института на основе демократических выборов, изучаются вопросы полномочий парламента, статуса депутатов и т.д. Автор упоминает об активном участии избирателей в парламентских выборах, а также реализацию их целей путем всеобщего, равноправного демократического, тайного голосования и референдума. Парламент Азербайджана является демократическим законодательным институтом, основанным на международном опыте и национальном менталитете. Цель написания данной статьи заключается в освещении демократического развития Азербайджана, принятия прогрессивных законов и путем проведения свободных выборов в законодательную власть.

**Ключевые слова:** Азербайджан, конституция, законодательная власть, избирательная комиссия, парламент

**Получено: 25/03/2019** **Принято: 22/06/2019**

## Giriş

Azərbaycan Respublikasının qüvvədə olan Seçki Məcəlləsi bütün hakimiyyət qollarına və orqanlarına seçki qaydalarını müəyyənləşdirmişdir. Burada aşağıdakı sahələrə seçkilərin keçirilməsi göstərilir:

1. Milli Məclisə seçkilər, millət vəkillərinin seçkiləri, parlament seçkiləri və yekunları;
2. Prezident seçkiləri, prezidentliyə namizədlərin hüquq və vəzifələri və seçkilərinin keçirilməsi və nəticələri;
3. Bələdiyyə seçkiləri, bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi və seçilməsi qaydaları;
4. Referendumun təyin edilməsi, keçirilməsi və qəbul edilməsi, referendum yolu ilə qəbul edilmiş aktlar;
5. Mərkəzi Seçki Komissiyasının, eləcə də digər seçki və referendum orqanlarının seçilməsi, siyasi partiyaların və siyasi partiya bloklarının seçkilərdə və referendumda iştirakının əsasları.

Məlum olduğu kimi, demokratik idarəçiliyin formaları içərisində parlament və prezidentlik institutu əsas yer tutur. Buna görə də müstəqillik qazanan, öz konstitusiyasında hüquqi, demokratik dövlət quruculuğunu bəyan edən Azərbaycan Respublikası parlamentarizm institutunun reallaşması üçün hüquqi baza yaratdı. Xüsusilə 1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə bu sahədə ciddi dəyişikliklər baş verdi. Azərbaycan Konstitusiyasının "Dövlət hakimiyyəti" adlanan üçüncü bölməsinin beşinci fəsli qanunvericilik hakimiyyətinə, onun həyata keçirilməsinə, Milli Məclisin tərkibinin müəyyənləşməsinə, deputatların-millət vəkillərinin seçkilərinin əsaslarına, onların çağırış səlahiyyətinin müddətinə, deputatlığa namizədlərə aid tələblərə, deputatların seçkilərinin nəticələrinin yoxlanılmasına və təsdiqinə, deputatların səlahiyyətlərinin bitməsinə, Milli Məclisin sessiyalarına, deputatların toxunulmazlığına, Milli

Məclisin işinin təşkilinə, aktlarına, onun müəyyən etdiyi ümumi qaydalara, onun həll etdiyi məsələlərə, qanunvericilik təşəbbüsü hüququna, qanunları imzalanmaq üçün təyin olunması müddətinə, aktlarının qüvvəyə minməsinə, Milli Məclisinə buraxılmasına həsr edilmişdir. Azərbaycan Konstitusiyasında Milli Məclisinə seçkilərinin 5 ildən bir keçirilməsi, müharibə şəraitində seçkilərin müddətinin hərbi əməliyyatlarının sonunadək uzadılması nəzərdə tutulur. Konstitusiyada göstərilir: "Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüquq əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilir".[1] Bununla da Azərbaycanda parlamentarizm institutu yaradıldı və demokratik ənənəyə çevrildi. Azərbaycan Prezidenti Heydər Əliyevin 17 may 1996-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının Milli Məclisi deputatlarının statusu" haqqında AR qanunu qəbul edildi. 2001-ci il oktyabrın 19-dan sonra indiyədək qəbul edilmiş qanunlarda, qanunlara edilmiş dəyişiklik və əlavələrdə Milli Məclisin fəaliyyəti qanunvericilik əsasında tənzimlənmişdir. Parlamentarizm institutun, 125 millət vəkilindən ibarət Milli Məclis Azərbaycanın qanunvericilik hakimiyyəti kimi 5 ildə bir dəfə olaraq 1995-ci ildən 125 mandat üzrə 125 seçici dairəsi Azərbaycanda hakimiyyət bölgüsü birbaşa, bərabər və gizli səsvermələr əsasında demokratik seçki sistemi, vətəndaş cəmiyyəti, hüquqi dövlət, çoxpartiyalı sistem, azad media, plüralizm reallaşmağa başladı.

## 1995-2006-cı illərde Demokratik Parlament İnstitutuna Seçkilər

Bugünkü parlamentarizm XX əsrin əvvəllərində yaradılmış AXC-nin demokratik ənənələrinin davam etdirilməsidir. "Tarixi varislik təcrübəyə tənqidi yanaşılmasını, öz əhəmiyyətini itirməyən siyasi forma və ənənələri,

[1] *Azərbaycan Respublikasının Konstitusiyası*, 2005, 26.

davranış dəyərləri və nümunələrini seçməyi tələb edir. Tarixin bu dərsi siyasətçilərə və nəzəriyyəçi ilə başa salmalıdır ki, onlar Azərbaycanda siyasi proseslərin plüralist modellərinin reallaşması zərurətinə diqqəti yönəltsinlər. Məhz belə model keçmişin demokratik ənənələri (Azərbaycan Xalq Cümhuriyyəti dövründəki ənənələri) ilə müasir sivilizasiyanın meydana çıxardığı yeni formaların sintezini təmin edə bilər. Plüarist demokratik sistem müasir Azərbaycan üçün daha məqbuldur. Burada ideoloji, siyasi, sosial və iqtisadi, habelə institusional plüralizmin reallaşması nəzərdə tutulur".

2002-ci il avqustun 24-də keçirilən referendum əsasında Konstitusiyada dəyişiklik edildi. Konstitusiyada Milli Məclisin majoritar seçki sistemi əsasında təşkil olunması göstərilmişdir. 1995-ci il parlament seçkilərində seçicilərin 50 senzi, 2000-ci il parlament seçkilərində isə 25 senzi iştirak etsə də, seçkilərin baş tutduğunu elan edilirdi. Akademik R.Mehdiyev majoritar seçki sisteminin üstünlüklərindən bəhs edərək yazır: "Yeni minillikdə öz tarixi inkişafının yeni mərhələsini yaşayan dövlətimiz və cəmiyyətimiz aşkarlıq və şəffaflıq tələb edən vətəndaş cəmiyyətinə transformasiya olunur. Bu isə öz növbəsində müasir dövlət quruculuğu və effektiv dövlət idarəçiliyi yaradılması prosesində bir sıra demokratik məzmunlu dəyişikliklərin aparılmasını tələb edir. Bu faktor nəzərdən qaçmamalıdır. Məsələn, majoritar seçki sisteminin mahiyyəti ondadır ki, seçicilərin səslərinin müəyyən çoxluğunu toplamış namizəd seçkilərdə qalib gəlmiş hesab edilir. Respublikanın qanunvericiliyi seçkilərin növündən (prezident, parlament seçkiləri və ya yerli seçkilər) asılı olaraq, səslərin məhz hansı çoxluğunu – nisbi və ya mütləq çoxluğunu toplamağın zəruriliyini müəyyənləşdirir. Buna uyğun olaraq, nisbi çoxluğun majoritar sistemini və mütləq çoxluğun majoritar sistemini fərqləndirirlər. Nisbi çoxluğun majoritar sistemində öz rəqiblərinin hamısından çox səs toplamış namizəd seçilmiş hesab edilir. Bu sistem sadədir, çünki hətta minimum üstünlük qazanmış bir namizədin qələbəsini təmin edir. Hazırda bu

sistemdən ABŞ-da, Kanadada, Böyük Britaniyada, Yeni Zelandiyada və digər ölkələrdə istifadə olunur. Mütləq çoxluğun majoritar sistemi nəzərdə tutur ki, səsvermədə iştirak etmiş seçicilərin səslərinin yarısından çoxunu (50 faiz üstəgəl bir səs) qazanmış namizəd seçilmiş hesab olunur". [2] R.Mehdiyev bu seçki sisteminin müsbət cəhətlərini əsas götürərək Konstitusiyada düzəliş edildiyini və bu dəyişikliyin xalqın dəstəyini qazandığını eyni zamanda bu sistemin partiya strukturlarının inkişafına və demokratikləşməsinə təkan verdiyini göstərir.

Yeni Seçki Məcəlləsində majoritar seçki sisteminə keçildi. Hər bir dairədən millət vəkili seçkidə öz lehinə səs verə bilər.

2005-ci ildə Azərbaycan Milli Məclisinə seçkilər demokratik inkişaf da yeni mərhələ oldu. Beynəlxalq qurumların məsləhəti ilə Milli Məclisə Seçki Məcəlləsində dəyişikliklər və əlavələr edildi.

Dövlət başçısı İlham Əliyev parlament seçkilərinə beynəlxalq standartlara uyğunlaşması üçün seçki prosesi zamanı baş verəcək pozuntu və əyintilərin qarşısını almaq üçün qabaqcadan tədbirlər gördü. 2005-ci il sentyabrın 27-də Finlandiyanın Yunesradio Dövlət Teleradio Şirkətinə müsahibəsində İ.Əliyev demişdir: "Seçkilər ölkənin həyatında mühüm məqamdır. Düşünürəm ki, parlament seçkiləri çox uğurlu keçəcəkdir. Artıq iki aydır kampaniya başlayıb, proses çox müsbət gedir. Namizədlərin qeydiyyatı göstərdi ki, seçkilərə çox böyük maraq var. 2 mindən çox adam namizəd kimi qeydə alınıb, parlamentdə isə cəmi 125 yer var. Bu, onu göstərir ki, insanlar seçkilərin demokratik, ədalətli və şəffaf keçəcəyinə inanırlar. Beş il əvvəl parlament seçkilərində 400 namizəd vardı, indi isə onlar iki min nəfərdən çoxdur. Qeydiyyat prosesi çox uğurla keçdi və heç bir irad doğurmadı. Seçkiqabağı kampaniya prosesi də çox müsbət gedir, bütün kütləvi informasiya vasitələrində namizədlərin hamısına bərabər vaxt verilmişdir. Siyasi baxışlarından və platformasından, ümumiyyətlə, öz şəxsi

[2] Ramiz Mehdiyev, *XXI əsrdə milli dövlətçilik*, Bakı: XXI-YNE, 2012, 192.

potensialından asılı olmayaraq, deputatlığa hər bir namizəd həm pulsuz ikinci mərhələsi də çox uğurlu keçəcəkdir.

O, artıq başlanmışdır. Ölkənin rayonlarında da təşviqat aparılır, bütün rayonlarda seçicilərlə binalarda, açıq meydanlarda görüşlər keçirmək üçün yerlər müəyyən edilmişdir. Problem yoxdur".[3]

Dövlət başçısının müsahibəsindən aydın olur ki, ölkədə demokratik seçki artıq həyati reallığa çevrilmişdir.

Prezident İlham Əliyev ABŞ-ın və Türkiyənin nüfuzlu kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrdə növbəti parlament seçkilərinin güclü demokratik hüquqa dövlət qurmağa, qanunun aliliyinin gerçəkləşəcəyinə kömək edəcəyinə inamını bildirdi.

2005-ci il oktyabrın 25-də parlament seçkiləri ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən geniş müşavirədə dövlət başçısı seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi zərurətini qeyd etməklə yanaşı yarana bilən problemləri təcili həllə etməyi də göstərdi: "Eyni zamanda, müəyyən problemlər də var. Seçki kampaniyası ərzində müəyyən məsələlər ortaya çıxır. Biz gərək hər bir məsələyə operativ reaksiya verək və onun həlli üçün yollar axtaraq. Biz heç bir məsələyə ehkam kimi yanaşmamalıyıq. Fikirləşməliyik ki, seçkilərin ədalətli keçirilməsi üçün əlavə nə edilməlidir. Mən hesab edirəm ki, Seçki Məcəlləsinin mövcudluğu, mənim sərəncamım artıq bu sahədə kifayət qədər normal şərait yaradır. Bildiyiniz kimi, seçkiləri müşahidə edən ATƏT-in missiyası da təxminən eyni mövqedən çıxış edir. Onların bəyanatı olmuşdur ki, əgər mövcud Seçki Məcəlləsi və Prezidentin sərəncamı icra olunarsa, Azərbaycanda demokratik seçkilərin keçirilməsi mümkündür. Eyni zamanda, mövcud olan problemləri biz gərək həll edək. Onların aradan qaldırılması üçün müvafiq göstərişlər veriləcək və qərarlar

[3] İlham Əliyev, "Seçkilər ölkənin həyatında mühüm məqamdır", *Dirçəliş-XXI əsr*, 2005, №70, sentyabr, 59-60.

qəbul ediləcəkdir”.[4]

Buna görə də Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərini hazırlanması və genişlənməsi ilə bağlı təxirə salınmaz tədbirlər haqqında” 25 oktyabr 2005-ci il tarixli sərəncam imzaladı. Sərəncamda seçkilər zamanı seçki məcəlləsinin bəzi tələblərinin pozulması, seçici vəsiqələrinin paylanması və seçici siyahılarının tərkib edilməsi sahələrində nöqsanlara yol verilməsinin, seçki prosesinə qeyri-qanuni müdaxilə edilməsi, seçki qabağı təşviqatı zamanı qanunların pozulmasının qarşısının alınması, seçki praktikasının təkmilləşdirilməsi üçün qanunverici hakimiyyət orqanına, Mərkəzi Seçki Komissiyasına, icra, güc orqanlarına konkret tapşırıqlar verildi: “Azərbaycan Respublikasının Milli Məclisinə təklif edilsin ki, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanunundan nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasında keçirilən prezident, Milli Məclis və bələdiyyə seçkilərini müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin”.[5]

Dövlət başçısı bütün namizədlərə bərabər şərait yaradılması, siyasi əqidəsindən və partiya mənsubiyyətindən asılı olmayaraq bütün namizədlərə qarşı ayrı-seçkiliyə yol verilməsini, qanunun aliliyinin təmin olunmasının bütün hakimiyyət orqanlarından qəti tələb etdi.

Beləliklə 2005-ci il noyabrın 6-da keçirilən parlament seçkiləri 45 ölkədən 1586 beynəlxalq müşahidəçi, habelə 17 mindən çox yerli müşahidəçi, 80 ölkədən 310 jurnalist izləmiş, Azərbaycan Respublikası

---

[4] “İlham Əliyevin 2005-ci il oktyabrın 25-də parlament seçkilərinə həsr olunmuş müşavirədə nitqi “Azərbaycanda parlament seçkiləri: azad, ədalətli və şəffaf keçiriləcəkdir” Dirçəliş-XXI əsr, 2005, 107.

[5] “ARMM-nə seçkilərin hazırlanması və aparılması ilə bağlı təxirəsalınmaz tədbirlərin haqqında AR Prezident 25 oktyabr 2005-ci il tarixli sərəncam”, Dirçəliş – XXI əsr, 2005, 113.

tarixində ilk dəfə olaraq, bu seçkilərdə “exit-poll” keçirilmişdi.

2005-ci il noyabrın 6-da keçirilmiş seçkilərdə 1541 nəfər deputat mandatı uğrunda mübarizə aparmışdı. Səsvermənin nəticələrinə görə seçilmiş 115 deputatdan 56-sı Yeni Azərbaycan Partiyasının namizədləri, 41-i müstəqil namizədlər idi. Digər 12 partiyanın namizədləri 17 mandat qazanmışdı. Mərkəzi Seçki Komissiyası 4, Konstitusiya Məhkəməsi isə 6 seçki dairəsində seçkilərin nəticələrini ləğv etmişdi.[6]

Beləliklə, Azərbaycanın demokratik inkişafında növbəti addım atılmış, mütərəqqi qanunlar qəbul edən sərbəst, azad seçki yolu ilə qanunvericilik hakimiyyəti orqanı seçilmişdir. Növbəti parlament seçkisi ölkəmizin ictimai-siyasi həyatında irəliyə doğru bir addım oldu.

Azərbaycan Prezidenti İlham Əliyev Milli Məclisin çox azad, ədalətli, şəffaf şəkildə və rəqabət şəraitində keçirilmiş parlament seçkilərinin ölkəmizdə demokratik inkişaf istiqamətində növbəti mühüm uğur olduğunu, Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirdiyini bildirmişdir. Dövlət başçısı xüsusi vurğulamışdır ki, biz Azərbaycanda güclü siyasi sistemin formalaşmasını istəyirik. Mən əminəm ki, “Parlament seçkiləri Azərbaycanda demokratik inkişaf istiqamətində atılmış növbəti mühüm addımdır. Bildiyiniz kimi, seçkilər çox azad, ədalətli, şəffaf şəkildə, rəqabət şəraitində keçirildi. Bütün namizədlər üçün bərabər imkanlar yaradılmışdır və seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirir. Mən əminəm ki, yeni tərkibdə Milli Məclis ölkəmizin gələcək inkişafı üçün dəyərli töhfələrini verəcək və Milli Məclis tərəfindən qəbul ediləcək qanunlar ölkəmizin demokratik inkişafı üçün gözəl şərait yaradacaqdır. Ölkəmizdə demokratik proseslər müsbət istiqamətdə inkişaf edir.

Azərbaycanda demokratiyanın inkişafı təmin edilir. Azərbaycanda

---

[6] *Heydər Əliyev* (elmi redaktoru Yagub Mahmudov), iki cilddə, 2-ci cild, “Turxan”, Bakı: NPB, 2013, 212.

hüquqi dövlət quruculuğu işində çox vacib işlər görülmüşdür. Demokratiya bizim şüurlu seçimimizdir. Azərbaycan müasir demokratik ölkə kimi uğurla inkişaf edir. Ölkədə bütün azadlıqlar təmin edilibdir. Söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, siyasi plüralizm təmin edilibdir. Ölkədə siyasi sistemin formalaşması işində çox vacib addımlar atılıbdır. Azərbaycanda siyasi mübarizə sivil qaydalarla tənzimlənir. Əminəm ki, yeni tərkibdə Milli Məclis bu gözəl ənənələrini daha da möhkəmləndirəcəkdir”.[7]

Milli Məclisinə seçkilərlə əlaqədar Prezident İ.Əliyev demişdir: “Seçkilər şəffaf, ədalətli şəkildə, yüksək rəqabət şəraitində keçirilmişdir, bu seçkilər ən yüksək beynəlxalq standartlara cavab verir, Azərbaycan xalqı bu seçkilərdə öz iradəsini azad şəkildə ifadə etmişdir. Bir sözlə, bu seçkilərdə Azərbaycan demokratiya yolunda növbəti uğurlu addım atmışdır və bir daha sübut etmişdir ki, Azərbaycan demokratiyaya sadiqdir. Azərbaycanda bütün demokratik təsisatlar uğurla fəaliyyət göstərir, ölkədə bütün azadlıqlar - söz azadlığı, siyasi fəaliyyət azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, vicdan - din azadlığı təmin edilir, bütün azadlıqlar mövcuddur. Bu seçkilərdə əlbəttə ki, bütün bu azadlıqlar bir daha özünü büruzə vermişdir. Eyni zamanda, onu da qeyd etməliyəm ki, son illər ərzində ölkədə gedən quruculuq prosesi də seçkilərin nəticələrinə öz müsbət təsirini göstərmişdir. Son illər ərzində Azərbaycan uğurla, sürətlə və hərtərəfli inkişaf edir. Əlbəttə ki, Azərbaycan vətəndaşları bu reallıqları nəzərə alaraq seçkilərdə həm fəallıq göstərmiş, eyni zamanda, ölkədə aparılan siyasətə bir daha öz səslərini vermişlər”.[8]

---

[7] “İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak etmişdir” https: // president.az/articles/ // 79. (10.06.2019).

[8] “Azərbaycan Prezidenti Milli Məclisinin ilk iclasında çıxış edib” https:/www.google.az\search ? q=v+çağırış+milli+məclis.=13668 bih=662. (15.06.2019).

## Nəticə

Azərbaycanda demokratik parlament institutuna seçkilər mövzusu üzrə aşağıdakı nəticələrə gəlmək mümkündür:

1. Bugünkü parlamentarizm XX əsrin əvvəllərində yaradılmış AXC-nin demokratik ənənələrinin davam etdirilməsidir;
2. Azərbaycanda parlament beynəlxalq təcrübəyə və milli mentalitetə əsaslanan demokratik, qanunverici bir institutdur;
3. Demokratik idarəçiliyin formaları içərisində parlament və prezidentlik institutu əsas yer tutur;
4. Azərbaycan Konstitusiyasında Milli Məclisinə seçkilərinin 5 ildən bir keçirilməsi, müharibə şəraitində seçkilərin müddətinin hərbi əməliyyatlarının sonunadək uzadılması nəzərdə tutulur.
5. Konstitusiyaya görə Milli Məclis majoritar seçki sistemi əsasında təşkil olunur;
6. Azərbaycanın demokratik inkişafı üçün mütərəqqi qanunlar qəbul edən sərbəst, azad seçki yolu ilə qanunvericilik hakimiyyət orqanı seçilmişdir;
7. Azərbaycanda siyasi mübarizə sivil qaydalarla tənzimlənir.

Beləliklə, Azərbaycanda parlament seçkisi beynəlxalq təcrübəyə və milli mentalitetə əsaslanan demokratik, şəffaf, azad yolla seçilən bir təsisat kimi ölkəmizdə qanunvericilik sahəsinə töhfə verən bir güclü institutudur.

**Ədəbiyyat**

*Azərbaycan Respublikasının Konstitusiyası*. Bakı: Qanun, 2005.

MEHDİYEV, R., *XXI əsrdə milli dövlətçilik*, Bakı: XXI-YNE, 2012.

ƏLİYEV, İ., "Seçkilər ölkənin həyatında mühüm məqamdır", *Dirçəliş-XXI əsr*, 2005, №70, sentyabr, 59-65.

"İlham Əliyevin 2005-ci il oktyabrın 25-də parlament seçkilərinə həsr olunmuş müşavirədə nitqi "Azərbaycanda parlament seçkiləri: azad, ədalətli və şəffaf keçiriləcəkdir", Dirçəliş-XXI əsr, 2005, 93.

"ARMM-nə seçkilərin hazırlanması və aparılması bağlı təxirəsalınmaz tədbirlərin haqqında AR Prezident 25 oktyabr 2005-ci il tarixli sərəncam", Dirçəliş – XXI əsr, 2005, 93.

*Əliyev Heydər (*elmi redaktoru Yaqub Mahmudov), iki cilddə, 2-ci cild "Turxan", Bakı: NPB, 2013, 704.

"İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak etmişdir", https://president.az/articles//79, (10.06.2019).

"Azərbaycan Prezidenti Milli Məclisinin ilk iclasında çıxış edib" https:/www.google.az\search?q=v+çağırış+milli+məclis.=13668 bih=662, (15.06.2019).